# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*



*Hüseynbala MİRƏLƏMOV*

*(Əvvəli ötən saylarımızda)*

***Sultan Murad Şah İsmayılın Şiraza gəlmək xəbərini eşidəndə elə bil başına qaynar qazan dolu su tökdülər. Dərd-ələmə qərq oldu. Doğrudur, beş min nəfərlik qüvvəsi hələ ki, onun ixtiyarında idi. Yaxşı bilirdi ki, bu beş min nəfərlik qüvvə ilə Qızılbaşların qarşısında davam gətirmək olmaz. Onun adamları əvvəlki döyüşlərdən yorğun düşmüş, əzilmiş, ən başlıcası, gələcəyə olan inamlarını itirmişdilər. Deməк olar ki, daha heç kim Sultan Muradın Ağqoyunlu səltənətini bərpa edəcəyi, bu yolda vuruşan hər kəsi xoşbəxtlik mərtəbəsinə çatdıracağı haqqında nağıllara inanmırdı.***

***Ağqoyunlu varisini fikir götürmüşdü. Hətta o qədər fikirli olurdu ki, birdən öz-özünə danışmağa başlayırdı. Yaxınlıqda olanlar eşidirdilər ki, o, daha çox qardaşı Əlvənd Mirzəni söyür. Onun ünvanına olmazın nifrinlər yağdırırdı. Əlvənd Mirzəni günahlandırmağının səbəbi bu idi ki, guya o, Sultan Muradı inandırmışdı ki, tezliklə Osmanlılar kömək göndərəcəklər. O da həmin köməyin sayəsində Şah İsmayılı məğlub edəcək, özü də təkcə məğlub etməklə kifayətlənməyəcək, Qızılbaşların kökünü kəsəcəkdi. Onların qanlarını arxa tutub çaya döndərəcəkdi, həm də təkcə Əlvənd Mirzəni günahlandırmırdı, babası Uzun Həsəni də qınayırdı. Əgər bir vaxt babası bu Ərdəbil dərvişlərinin nəsli ilə qohumluq əlaqəsi qurmasaydı, əvvəl Şeyx Cüneydi, sonra da Şeyx Heydəri hakimiyyətə yaxın buraxmasaydı indi onların əlində belə yüksək hərbi qüvvə cəmləşməzdi.***

***Beləcə, Sultan Murad özündən başqa Ağqoyunlu nəslində kimlər varisdirsə hamısının adına söyüş və qarğış yağdırırdı, hətta xalası Məryəm xanımı da yamanlamaqdan çəkinmirdi. O, istəsəydi Şah İsmayılla bizi barışdırardı, - deyə düşünürdü.***

***Bunların fövqündə o, özünü günahsız bilirdi. Daha düşünmürdü ki, əgər Şah İsmayılın təklifi ilə razılaşıb ona müxalif olmaqdan əl çəksəydi, şah da onu bağışlayar, elə Bağdadın hakimi kimi də saxlayardı. Yəni, Bağdadın hakimi olaraq qalmış olsa idi onda sərvəti də talan olmaz, ailəsi də dərbədər düşməzdi.***

***Bütün bunlarla belə, Sultan Murad hələ də inadından dönmək fikrində deyildi. Hələ də ona elə gəlirdi ki, Əlaüddövlə Zülqədər bəydən, yaxud Osmanlılardan kömək alacaq, Xorasan hakimindən qüvvə istəyəcək... bütün bu qüvvələri birləşdirməklə Qızılbaşlara qarşı müsəlləh bir cəbhə yaradacaq, nəticədə Qızılbaşları məğlub etməklə Ağqoyunlu səltənətini də bərpa edə biləcəkdi.***

Daha düşünmürdü ki, bir vaxt Ağqoyunlu səltənətinin ərazisi olan böyük məmləkətdə ayrı-ayrı şəhərlərin heç bir hakimi ona inam göstərmir. Ona qoşununu saxlamaq üçün nə ərzaq verir, nə də başqa bir yardım göstərmirdi. Onu təəccübləndirən bir də orası idi ki, Sultan II Bəyazid Qızılbaşları məğlub etmək üçün bir vaxt ona nə qədər odlu silah vermiş, top göndərmişdi, hətta odlu silahları yaxşı işlədə bilən təcrübəli döyüşçülər də göndərməkdən çəkinmirdi. Sultan Bayazidlə tez-tez məktublaşırdı. Təəssüf ki, bu məktublarında arası kəsilmiş, axırıncı dəfə yazdığı məktuba isə Sultan II Bəyazid heç cavab verməmişdi.

Hər halda Sultan Murad neçə illər idi ki, böyük bir əraziyə hakimlik edirdi. Onun dövləti idarəetmə işlərində kifayət qədər təcrübəsi vardı. Hətta yeri gələndə, məqamı çatanda öz rəqiblərinin qüvvələri arasına adamlarını göndərir, bu adamları vasitəsilə şayiələr yayır, asanlıqla qarışıqlıq yarada bilirdi. Çox qəribə idi ki, son vaxtlar onun bu əməli də fayda vermirdi. Adamlar Qızılbaşların yanına gedən kimi ya özləri təslim olub nə məqsədlə gəldiklərini açıqlayır, ya da tezliklə ifşa olunub cəzalanırdılar. Ən pisi də o idi ki (Sultan Murad belə düşünürdü), adamlar axın-axın Qızılbaş qoşununa daxil olur, Qızılbaşların əqidələrini qəbul edirdilər.

Bütün bunların hamısını xəyalında götür-qoy edən Sultan Murad belə qərara gəldi ki, Qızılbaşlarla qarşılaşmaq olmaz, hətta məcburiyyət qarşısında Qızılbaşlarla qarşılaşmalı olsa belə, elə ilk döyüşdəcə bütün qüvvələrini itirəcək, çox ola bilsin ki, özü də Şah İsmayıla əsir olacaqdı. Şahın isə onun əlindən çox qəzəbli olduğuna görə onu ağır cəzaya məhkum edəcəkdi.

Sutan Muradın xəyalı Qəmbər ağa ilə son görüşünə getdi. Axı Qənbər ağa ona demişdi ki, əgər Sultan istəmirsə boyunu boyunduruğa düşsün, rüsvayçılıqla qoşun önündən keçirilsin, onda yaxşı olar ki, şahın əmirlərini qəbul etsin.

Sutan Murad hər iki əlini şappıltı ilə başına vurdu. Bu da onun dərin peşmançılıq hissi keçirdiyinə dəlalət edirdi. Sultan Murad heç əhəmiyyət vermirdi ki, kimsə onun bu hərəkətini görür ya görmür, hətta yaxın gəlib onun yerə dikilmiş gözlərinə diqqət edən olsa idi görərdi ki, necə ağlayır. İndi kimsə müraciət etməyi də, təzədən şahın hüzuruna peşmanlıqla getməyi də özünə sığışdırmırdı.

Bütün bunlar azmış kimi ona xəbər çatdırdılar ki, Mənsur bəy Şirazdan çıxıb Şah İsmayılın qarşısını kəsmək üçün göndəriləndən sonra fikirini dəyişib, tabeliyində olan bütün qüvvələri Qızıl-başlara təslim edib.

Bu xəbəri gətirən elə Mənsur bəyin dəstəsində olub, sonra onun adamlarının gözündən yayınıb aradan çıxan Osman bəy idi.

Osman bəy hələ Sultan Murad Bağdadda olarkən Sultan II Bəyazidin kömək üçün göndərdiyi topçulardan idi. Birinci ağır məğlubiyyətdən sonra toplar da əldən çıxmış, Sultan Muradın dəstələri pərən-pərən düşmüşdü. Osman bəy də birtəhər başını salamat saxlayıb Sultan Muradın arxasınca getmişdi.

Əslində, Sultan II Bəyazid Osman bəyə xəlvəti bir tapşırıq da vermişdi, Şah İsmayılla Sultan Muradın qarşılaşmalarında iştirak etsə də çalışıb başını salamat saxlasın və hadisələrin axırına yaxın özünü Sultan II Bəyazidin yanına yetirsin və baş verən hadisələrin təsnifatını ona danışsın. Osman bəy də bütün fəhmi-fərasətini cəm eləyib başını salamat saxlamaqla son nəticədə Sultan II Bəyazidin tapşırığını yerinə yetirmək niyyətində idi. Elə bir niyyətlə də Mənsur bəyin dəstəsindən ayrılıb özünü Sultan Muradın yanına çatdırmışdı:

- Belə dərin fikirə qərq olmaqla bir çarə tapılmaz, sultanım.

- Çarə hardasa gizlənib ki, indi onu hardasa tapaq Osman bəy?

- Hər halda çarənin ayağı da yoxdur ki, yeriyib sənin hüzuruna gəlsin.

Osman bəyin bu sözləri, əslində, Sultan Muradın şəstinə toxundu. O, başını qaldırıb Osman bəyi tərs-tərs süzdü və xeyli sükutdan sonra ağır-ağır dilləndi:

- Belə müşkül duruma düşməyin bir səbəbi də elə Sultan II Bəyazidlə bağlıdır.

- Niyə ki, mən elə düşünmürəm Sultan II Bəyazid hər vaxt Sultan Murada kömək əlini uzadıb, onu yardımsız qoymayıb.

- Əgər o, vəd verdiyi qüvvələri vaxtında göndərsəydi, Qızılbaş qoşunlarını çoxdan məğlub edərdik.

- Hər halda belə naçar oturmaq olmaz.

- Bəs neyləyək, Osman bəy?- Sultan Murad "bəy" sözünü açıq-aşkar istehza ilə dedi. Onun istehzasını Osman bəy hiss etsə də üstünü vurmadı, istədi ki, Sultan Muradı inandırsın ki, hələ də çıxış yolları var. Buna görə də bir az da məhrəmliklə ona yaltaqlandı.

- Qüvvətli sultanım, Ağqoyunlu xanədanının adı səninlə bağlıdır. Hələ də insanlar Ağqoyunlu səltənətinin əzəlki şöhrətini özünə qaytaracağına inanırlar.

- Inanmaq nəyi həll eləyir ki?- Sultan Murad yenə də səsinin ahəngi ilə Osman bəyə istehzasını bir daha yetirdi.

- Bəli, sultanım, inanmaq çox şeyi həll eləyir. Sən burda - Şirazda çox da ləngimə. Qızılbaş qoşunları ilə qarşılaşmaq sənə fayda verməz.

Sultan Murad hiss elədi ki, bu sözləri Osman bəy həqiqətən səmimi deyir. Elə o özü də anlayırdı ki, ləngimək, gecikmək ölümə bərabərdir. İndi tez qalxıb ətrafında olan qüvvələrə yığışıb yola düşməyi əmr verməlidir.

- Bəs onda bu xəyanətkar Mənsur bəyi biz cəzasız buraxaq?- Sultan Murad əlacsız-əlacsız soruşdu.

Osman bəy də həqiqətən Sultan Muradın qəzəbini anlayırdı. Bilirdi ki, Mənsur bəyi cəzasız buraxıb getmək onu yandırıb-yaxacaq. Ona görə də çarəsiz durumda olan Sultan Murada vəziyyətdən çıxış yolunu göstərməyin vacib olduğunu bildirdi.

- Sən bunu Şiraz camaatının ixtiyarına burax - Osman bəy inamla dilləndi.

- Necə yəni Şiraz camaatının ixtiyarına buraxım?

- Bəli, bəli insanlar tamahkar olurlar, sən belə bir göstəriş ver; de ki, qoy hər kəs tökülüb Mənsur bəyin evini talan eləsin.

- Sən bilən, baş tutar bu fikrimiz? - Sultan Murad biraz inamsız soruşdu.

- Əlbəttə, baş tutar, hökmdar. Mən biləni, Mənsur bəy çox varlıdır. Adamlar tamahı üstün bilib bir günün içində onun evini darmadağın edərlər.

Deyəsən, bu fikir həqiqətən onlar üçün ağlabatan idi.

Sultan Murad bir neçə yaxın adamını çağırıb Osman bəyi də onlara qoşdu. Onlara Şiraz meydanında car çəkib Mənsur bəyin evini talan etmək əmrini çatdırmağı tapşırdı.

Həqiqətən Şiraz meydanında, bazar ətrafında, adamların gur yerində carçılar bağırmağa başladılar.

- Hər kəs Mənsur bəyin evini talan etsə, talandan əldə etdiyi onun özünün olacaq. - Bunu birinci carçı qışqırdı.

İkinci carçı onun ağzından söz qurtaran kimi təzədən havar çəkdi:

- Ay camaat, hələ üstəlik talanda yaxından iştirak edənlərin hər birinə Sultan Murad qiymətli hədiyyələr bəxş edəcək.

- Bu işi gecikdirmək olmaz elə bu andan talan başlanır. - Bunu da üçüncü carçı qışqırdı...

Beləliklə, carçılar şəhər meydanlarında dolaşıb hamını Mənsur bəyin evinin talanına çağırırdılar.

Əlbəttə, Şirazın hörmətli ağsaqqalları təmkin sahibi olan nüfuzlu adamları da bu xəbəri eşitdilər. Hələ indiyə qədər Şirazda belə bir hadisə baş verməmişdi. Ona görə də Şirazın məhəllə başçıları, hörmət sahibləri silahlı dəstələr düzəldib Mənsur bəyin evini, ailəsini mühafizə etməyi qərara aldılar.

Silahlı mühafizlər evi elə əhatəyə almışdılar ki, kimsə Mənsur bəyin evinin hasarına belə yaxınlaşa bilməzdi.

Xəbər Sultan Murada yetəndə o, özü qəzəbini boğa bilməyib xeyli qoşunla Mənsur bəyin evini dağıtmağa yollandı. Şirazlı ağsaqqallar onun qar-şısına çıxıb bu əməlin düzgün olma-dığını, şəhər əhalisinin qəzəbinə səbəb olacağını bildirərək Sultan Muradı fiki-rindən daşındırmağa çalışdılar. Sultan Murad əhalinin hər cür fədakarlığa hazır olduğunu görüb fikirindən daşındı.

Bu yandan da qasidlər bir-birinin arxasınca xəbər gətirirdilər ki, Şah İsmayıl Şiraza yaxınlaşır.

Halbuki gələn Halvaçıoğlu İlyasla Mənsur bəyin özü idi. Əlbəttə, onların ixtiyarında xeyli qüvvə var idi. Halvaçıoğlu İlyas burada da öz fəhmini göstərdi. Sultan Muradla qarşılaşmamaq üçün dolanıb şəhərin digər darvazasından keçdi. Mənsur bəyin bələdçiliyi ilə atlı dəstələri sürətlə evin ətrafına yaxınlaşdılar.

Mənsur bəy evini və ailəsini salamat gördü. Sevindiyindən göz yaşları yanağından üzü aşağı süzülürdü. Bu salamatlığı o, Səfəvi ocağının möcüzəsi sanırdı.

*(Davamı var)*